public council.az

ictimaishura.az

# İCTİMAİ ŞURA
# PUBLIC COUNCIL



"Mən bir daha demək istəyirəm ki, ictimai nəzarət olmasa, biz istəyimizə nail ola bilmərik. İctimai nəzarət nə deməkdir? Vətəndaşlar daha fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq."

***İlham Əliyev***

Azərbaycan Respublikasının Prezidenti

№ 05

Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın fəaliyyəti
2021 - 2023

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın  fəaliyyəti

**PUBLICCOUNCIL.AZ**
**ICTIMAISHURA.AZ**

***İnformasiya bülleteni açıq mənbələrdə yayımlanan məlumatlar əsasında hazırlanıb.***

Bakı şəhəri - 2023

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın fəaliyyəti 2021- 2023

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli Qanununa, Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli Qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun olaraq martın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın yeni tərkibinin müəyyən olunması üçün seçki keçirilib.

Seçkinin təşkili məqsədilə 2020-ci ildə Dövlət Komitəsi nümayəndələrindən 4 üzv, vətəndaş cəmiyyəti institutlarından 5 üzv olmaqla 9 nəfərdən ibarət Seçki komissiyası yaradılıb və Komissiyanın protokoluna əsasən Şuraya üzvlüyün say həddi 7 olaraq təsdiq edilib.

Seçkilərin keçirilməsi ilə bağlı səsvermədə iştirak etmək üçün 19.02.2021-ci il tarixdən 05.03.2021-ci il tarixinədək DQİDK tərəfindən elan verilib və müraciət edən 43 vətəndaş cəmiyyəti institutunun nümayəndəsi qeydiyyata alınıb. Onlardan 37 nəfər səsvermədə iştirak edib.

Seçkinin yekunu olaraq DQİDK yanında İctimai Şuranın 7 nəfərdən ibarət yeni tərkibi seçilib

İctimai Şuranın yaradılması Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, müvafiq fəaliyyət sahələrində ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi məqsədi daşıyır.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın tərkibi 2021 – 2023

1. **Alızadə Sevinc Əsgərxan qızı,** “Zəfər” şəhid ailələrinə dəstək İctimai Birliyi, İctimai Şuranın sədri

2. **Bayramov Çingiz İbrahim oğlu,** “Türkiyə Universitetləri Məzunları” İctimai Birliyi (TUMİB), İctimai Şuranın sədr müavini

3. **Məmmədova Nüşabə Ələsgər qızı**, “Beynəlxalq Dialoq və İnkişaf Alyansı” İctimai Birliyi, İctimai Şuranın katibi

4. **Mehdiyev Nurəddin Səftər oğlu,** “Bizim nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyi

5. **Sadıqlı Vasif İbrahim oğlu,** “Din və Demokratiya Mərkəzi” İctimai Birliyi

6. **Zeyni Rauf Xurşud oğlu,** Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu

7. **Çobanzadə Elçin Əlişah oğlu,** “Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq liqası” İctimai Birliyi

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın ilk iclası keçirilib

**30 mart 2021**

Martın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Komitə yanında İctimai şuranın yeni tərkibdə üzvləri ilə görüşüb.



Komitə sədri DQİDK yanında İctimai Şuraya seçilmiş üzvləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin ölkəmizdə ictimai iştirakçılığa və ictimai nəzarətə xüsusi diqqət göstərməsini qeyd edərək dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda da vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi ilə bağlı qarşıya yeni vəzifələr qoyulduğunu bildirib. Mübariz Qurbanlı Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun

vətəndaş cəmiyyətləri institutları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini vurğulayıb.

O, İctimai Şuranın əvvəlki tərkibi kimi, yeni tərkibinin də Azərbaycanın dövlət-din modelinin təşviqi, eləcə də ölkəmizin əldə etdiyi multikultural nailiyyətlərin, erməni vandalizminə məruz qalmış tarix, mədəniyyət və dini abidələr barədə faktların daha geniş şəkildə beynəlxalq ictimaiyyətə təbliği istiqamətində, eyni zamanda dindən sui-istifadə hallarına qarşı maarifləndirmə prosesində sıx əməkdaşlıq şəraitində uğurla fəaliyyət göstərəcəyinə, sözügedən istiqamətdə daim aktiv olacağına, rəy və təkliflərlə çıxış edəcəyinə əminliyini ifadə edib.

Daha sonra İctimai Şuranın yeni tərkibdə ilk iclası keçirilib. İctimai Şuranın təşkilati məsələləri ilə bağlı rəy və təkliflər səsləndirilib. İctimai Şuraya üzvlər arasından səs çoxluğu ilə “Zəfər” şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə sədr, “Türkiyə Universitetləri Məzunları” İctimai Birliyinin sədri Çingiz Bayramov sədr müavini, “Beynəlxalq Dialoq və İnkişaf Alyansı” İctimai Birliyinin sədri Nüşabə Məmmədova isə katib seçilib.



Çıxış edən “Zəfər” şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə göstərilən etimada görə Şura üzvlərinə təşəkkürünü bildirərək İctimai Şuranın öz vəzifələrini uğurla yerinə yetirəcəyini, dini və mənəvi dəyərlərin təbliği və qorunub saxlanılmasına töhfə vermək əzmi ilə fəaliyyət göstərəcəyini vurğulayıb.

## DQİDK yanında İctimai Şuranın üzvləri Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasında olublar

**06 May 2021**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri Bakıdakı "Müqəddəs Jen-Mironosits" Rus Pravoslav kafedral Kilsəsini ziyarət edib, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumunun fəaliyyəti ilə tanış olublar.



Görüşdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi protoiyerey Mefodi Əfəndiyev, İdarənin mətbuat katibi Konstantin Pominov və DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə və sədr müavini Çingiz Bayramov, üzvləri Rauf Zeyni, Vasif Sadıqlı, eyni zamanda Komitənin şöbə müdiri Yaqut Əliyeva iştirak edib.

Görüş zamanı Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi protoiyerey Mefodi Əfəndiyev dini qurumun fəaliyyəti, ölkəmizdə mövcud olan tolerantlıq və multikultural mühiti, dövlətimizin dini konfessiyalar üçün yaratdığı şərait barədə danışıb.

Bildirib ki, bu kilsə 1909-cu ildə məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin maddi yardımı və ianələr hesabına inşa edilib. 1920-ci ildə sovet hakimiyyəti dövründə kilsə ilk bağlanan ibadət yerlərindən biri olub. Müstəqillik illərində təmir-bərpa edilən kilsənin açılış mərasiminə Ulu Öndər Heydər Əliyev iştirak edib. Kilsənin bərpasında azərbaycanlı xeyriyyəçi iş adamı Aydın Qurbanovun böyük xidmətləri olub. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2002-ci ildə ilk dəfə, 2009-cu ildə isə yenidən dövlət qeydiyyatına alınıb. Ölkəmizdə yaşayan rus pravoslavlarının hər zaman Azərbaycan dövləti tərəfindən diqqət və qayğı ilə əhatə olunduğunu vurğulayan M.Əfəndiyev, həmçinin görüş iştirakçılarını Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilən, Yeparxiyanın tərkibində fəaliyyət göstərən Pravoslav Dini Mədəniyyət Mərkəzinin fəaliyyəti haqqında da məlumatlandırıb.



İctimai Şura üzvləri bütün dünyada ksenofobiyanın, islamofobiyanın hökm sürdüyü bir dövrdə Azərbaycanda mövcud olan sabitlik, əmin-amanlıq, tolerantlıq mühitinin önəminə toxunaraq bu sabitliyi qorumaq üçün hər bir kəsin səy göstərməli olduğunu vurğulayıblar. Qeyd ediblər ki, bu cür görüşlərin keçirilməsində əsas məqsəd dövlət tərəfindən qeydiyyata alınan dini konfessiyaların fəaliyyəti, dini qurumlar arasındakı əməkdaşlıq mühiti ilə daha yaxından tanış olmaq məqsədi daşıyır.

## DQİDK yanında İctimai Şuranın üzvləri Alban-Udi xristian dini icmasında olublar

### 25 mayın 2021

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri Qəbələ rayonu, Nic qəsəbəsində yerləşən Müqəddəs Yelisey adına Cotari Kilsəsini ziyarət edib, Alban-Udi xristian dini icmasının fəaliyyəti ilə yaxından tanış olublar.



Görüşdə Alban-Udi xristian dini icmasının sədr müavini Rafiq Danakari və icma üzvləri, eləcə də DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə, sədr müavini Çingiz Bayramov, Şura üzvləri Nüşabə Məmmədova, Vasif Sadıqlı, eyni zamanda Komitənin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva iştirak ediblər.



Görüş zamanı Alban-Udi xristian dini icmasının sədr müavini Rafiq Danakari Cotari alban-udi kilsəsi haqqında danışaraq bildirib ki, kilsə yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Sovet hakimiyyəti illərində fındıq anbarı kimi fəaliyyət göstərmiş kilsədə 2003-cü ildə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılıb, 2006-cı ildə tamamlanaraq dindarların istifadəsinə verilib. Qeyd edib ki, Azərbaycanda 4 minə yaxın alban-udi yaşayır və onlar tarixi Qafqaz Albaniyası dövlətinin və Alban mədəni irsinin varisləridir. R. Danakari dini icmanın maarifçilik işi sahəsində gördüyü işlər, dövlətin dini konfessiyaların fəaliyyətinə göstərdiyi diqqət, yaradılan şərait, eləcə də ölkəmizin bütün dünyaya nümunə sayılacaq multikultural və tolerantlıq ənənələri haqqında danışıb.




İşğaldan azad olunmuş ərazilərdəki dini məbədlərə qarşı ermənilərin törətdikləri vandallıq aktlarının dünyada misli görünməmiş hal olduğunu qeyd edən R. Danakari vurğulayıb ki,

ermənilər o torpaqlarda nəinki İslamla bağlı olan tarixi, mədəni abidələri məhv ediblər, hətta Alban kilsələrini də dağıdıb, ya da saxtalaşdırıblar. Bu kilsələr, məbədlər birbaşa Alban mədəni irsi ilə bağlıdır və erməni kilsələri ilə heç bir bağlantısı yoxdur. Məqsədli şəkildə bu kilsələri saxtalaşdırıb, erməni kilsəsi kimi təqdim ediblər. Artıq dövlətimizin ərazi bütövlüyü bərpa olunub, tarixi həqiqət isə budur ki, bu gün Azərbaycan tarixi alban mədəni irsinin varisidir. R. Danakari eyni zamanda, Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə işğaldan azad olunan ərazilərimizdəki Alban abidələrini ziyarət etmələrindən və bu səfərlərin davamlı olacağından bəhs edib.



İctimai Şura üzvləri Azərbaycan Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində ordumuzun hərbi qələbələri ilə 30 ilə yaxın müddət ərzində erməni işğalı altında qalan ərazilərimizin azad edildiyini, işğalçı ermənilər tərəfindən dağıdılan, tövlə kimi istifadə edilməklə təhqir olunan məscidlərimizlə yanaşı, Alban xristian memarlığını özündə əks etdirən əsir abidələrimizin də artıq yenidən əmin əllərdə olduğunu vurğulayıblar. Qeyd edilib ki, tarixi alban irsi haqqında həqiqətlərin dünyaya çatdırılmasında çox işlər görülməli, Azərbaycan dövləti ilə birgə Alban-Udi dini icması da bu sahədə fəaliyyətini genişləndirməlidir. Eyni zamanda, ölkəmizdəki mövcud

birgəyaşayış, qarşılıqlı anlaşma, dözümlülük mühitinin qorunub saxlanılması və təşviqində bütün dini konfessiyalar cəmiyyətin digər təbəqələri ilə birgə bundan sonra da maarifçilik işini davam etdirməlidirlər. Bu istiqamətdə görüləcək işlərdə DQİDK yanında İctimai Şuranın da yaxından iştirak edəcəyi bildirilib.

İctimai Şura üzvləri dini icmaya Qafqaz Albaniyası kilsələri, eləcə də Qarabağın və Azərbaycanın digər rayonlarının maddi-mədəniyyət abidələrinin tarixindən bəhs edən videomateriallar hədiyyə ediblər.

Qeyd edək ki, səfər çərçivəsində İctimai Şura üzvləri Qəbələ rayonu Əmirvan kəndində Azərbaycan Ordusunun Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış polkovnik-leytenantı, "Vətən Müharibəsi Qəhrəmanı" Əfqan Abdurahmanovun məzarını da ziyarət ediblər.

## İctimai Şuranın üzvləri ilə Mənəvi Dəyərlərin Təbliği Fondunda görüş baş tutub

**09 iyun 2021**



DQİDK yanında İctimai Şuranın üzvləri ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun görüşü baş tutub.

İcraçı direktor Şura üzvlərinə Fondun yaranması, fəaliyyət istiqamətləri, layihələri və hesabatlılığı haqqında geniş məlumat verib.

İctimai Şura üzvlərinin təklifləri dinlənilib, birgə həyata keçirilə biləcək planlar müzakirə olunub.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın hesabat iclası keçirilib

## 10 sentyabr 2021

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın hesabat iclası keçirilib.



Hesabatdan öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxış edərək dövlət başçısı tərəfindən Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin genişləndirilməsindən, qeyri-hökumət təşkilatlarının dövlət idarəçiliyi və qanun yaradıcılığı prosesinin iştirakçısına çevrilməsindən danışıb. Dövlət Komitəsinin qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdıran G.İsmayılov İctimai Şuranın bu sahədə gördüyü işlərin əhəmiyyətindən söhbət açıb, İctimai Şura üzvlərinə üzvlük vəsiqələrini təqdim edib.





Daha sonra İctimai Şuranın Hesabat iclası keçirilib. Şura sədri Sevinc Alızadə 5 aylıq Hesabatı təqdim edərək, görülən işlərdən və təşkil edilən görüşlərdən danışıb. İclasda həmçinin, İctimai Şuranın



cari məsələləri müzakirə edilib, görüləcək işlər ilə bağlı rəy və təkliflər səsləndirilib.

## 3 qurum yanında İctimai Şura bir araya gəlib

**12 yanvar 2022**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın  növbəti iclası keçirilib.



Cari ildə görüləcək işlərə həsr olunmuş iclasda Komitənin əməkdaşları və DQİDK yanında İctimai Şuranın təmsilçiləri ilə yanaşı, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuraların üzvləri iştirak ediblər.



Sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, ideoloji sahədə dinlə bağlı üzləşdiyimiz problemlər, dövlət-din münasibətlərinin tənzimlənməsi qaydaları və digər məsələlər ətrafında geniş təqdimatla çıxış edib. Dini kimliyimizin-milli kimliyimizə qarşı qoyulması, dinin siyasiləşdirilməsi, din pərdəsi altında, dindən sui-istifadə edilərək İslamın azərbaycançılığa qarşı qoyulması, “dindarlığın” artması ilə məzhəbçiliyin də güclənməsi, eləcə də

xurafat meyillərinin artması, dini təhsilin dünyəvi təhsilə qarşı qoyulması, qadın hüquqlarının məhdudlaşdırılması kimi tendensiyalara diqqət çəkən G.İsmayılov bu kimi arzuolunmaz hallara qarşı mübarizədə intensiv təbliğat, güclü təşkilatlanmanın önəmi barədə danışıb. Prezident İlham Əliyevin müvafiq Sərəncam və Fərmanı ilə Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını bu sahədə atılan strateji addımlar kimi dəyərləndirib.



DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə ideoloji sahədəki bəzi çatışmazlıqlara qarşı mübarizədə, gənclərin milli ruhda, Azərbaycançılıq prinsipləri əsasında formalaşmasında əlaqəli qurumların İctimai Şuraların koordinasiyalı şəkildə fəaliyyət göstərməsinin zəruriliyini qeyd edib.

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü Kəmalə Aşumova təmsil etdikləri şuraların fəaliyyət planında öz əksini tapan ortaq problemlərə qarşı gələcəkdə birgə əməkdaşlıq edilməsini müvafiq istiqamətlərdə maarifləndirmə işinin daha da sürətlə aparılmasında çox vacib amil kimi qiymətləndiriblər.





Cari məsələlərin müzakirəsi ilə yanaşı, 2022-ci il ərzində fəaliyyətin daha səmərəli təşkili ilə bağlı həyata keçirələcək tədbirlərə dair fikir mübadiləsinin aparıldığı iclasda DQİDK yanında İctimai Şuranın üzvləri Rauf Zeyni, Çingiz Bayramov, Vasif Sadıqlı təkliflərlə çıxış ediblər.

## Dövlət Komitəsi yanında İctimai Şuranın üzvləri müsahibə prosesini izləyiblər

**10 avqust 2022**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün təşkil edilən müsahibədə müşahidəçi qismində iştirak ediblər.



Şura üzvlərindən Nüşabə Məmmədova, Çingiz Bayramov, Rauf Zeyni əvvəlcə müsahibələrin keçirildiyi Azərbaycan İlahiyyat İnstitutunda namizədlər üçün yaradılmış şəraitlə tanış olublar. Ardınca müsahibə prosesini izləyən ictimaiyyət nümayəndələri Müsahibə Komissiyasının üzvləri tərəfindən namizədlərə verilən sualların “İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması və attestasiyası üzrə proqram”a uyğunluğunu müəyyən etməklə yanaşı, namizədlərin hazırlıq səviyyəsi ilə də tanış olmaq imkanı əldə ediblər.

Müşahidənin sonunda fikirlərini bölüşən DQİDK yanında İctimai Şuranın üzvləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması məqsədilə keçirilən müsahibənin şəffaf təşkilinə və reqlamentə uyğunluğuna görə məmnunluqlarını bildiriblər. Vurğulayıblar ki, Komissiya üzvləri tərəfindən namizədlərə proqrama uyğun olaraq, dini sahəylə yanaşı Azərbaycan Respublikası Konstitusiyası və dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktları barədə sualların verilməsi gələcəkdə dövlət-din münasibətlərinin tənzimlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## DQİDK yanında İctimai Şuranın növbəti iclası keçirilib

### 12 oktyabr 2022

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın növbəti iclası keçirilib. Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva DQİDK-nın fəaliyyətinin aktual istiqamətləri barədə danışıb.



Bildirib ki, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 25 fevral 2022-ci ildə “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 3-cü hissəsinə edilmiş dəyişikliyə və dövlət başçısının 11 mart 2022-ci il tarixli Fərmanına əsasən, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin olunması Dövlət Komitəsinin səlahiyyətləri

sırasına daxil edilib. Müvafiq dəyişikliklərə uyğun olaraq din xadimlərinin təyinatı ilə bağlı yeni qaydalar ictimaiyyətə təqdim olunub. 39 vakant vəzifənin tutulması üçün 270 namizədin sənədi qeydiyyata alınıb. 02 -13 avqust tarixlərində keçirilən müsahibədə sənədi qeydə alınmış 270 namizəddən 251 nəfəri iştirak etmişdir. Müsahibədən uğurla keçən 133 nəfər içərisində ən yüksək bal toplayanlar təyinat alaraq fəaliyyətə başlayıblar. Şöbə müdiri, eyni zamanda maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə Dövlət Komitəsinin sifarişi əsasında hazırlanan sənədli film və videoçarxlar haqqında məlumat verib.



DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə bugünədək İctimai Şura tərəfindən keçirilən görüşlərə toxunaraq əlaqəli qurumların İctimai Şuralarının koordinasiyalı şəkildə fəaliyyət göstərməsinin zəruriliyini vurğulayıb.

Cari məsələlərin müzakirəsindən sonra Şura üzvləri ekspert qrupu və Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması barədə qərar qəbul ediblər.

## DQİDK yanında İctimai Şuranın üzvləri Bakı şəhəri Dağ yəhudiləri dini icmasında olublar



**17 oktyabr 2022**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri Bakı şəhəri Dağ yəhudiləri dini icmasını ziyarət edib, dini qurumun fəaliyyəti ilə yaxından tanış olublar.

Görüşdə dini icmanın sədri Milix Yevdayev, DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə və sədr müavini Çingiz Bayramov, üzvləri Rauf Zeyni, Vasif Sadıqlı, eyni zamanda Komitənin İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova iştirak edib.

İcma sədri Milix Yevdayev Azərbaycanda Dağ yəhudilərinin tarixi haqqında məlumat verib, dövlətin icmaya göstərdiyi qayğıya görə məmnunluğunu ifadə edib. Bildirib ki, müstəqilliyimizin bərpa olunmasından sonra ölkəmizdə yaşayan milli azlıqların, o cümlədən yəhudilərin həyatında yeni mərhələ başlayıb, milli azlıqların hüquq və azadlıqlarının qorunmasına, onların mədəniyyətinin inkişafına dövlət səviyyəsində dəstək verilməsi qeyri-islam dini icmaları, o cümlədən yəhudi icmaları qarşısında



yeni imkanlar açıb. Prezident İlham Əliyevin Sərəncamı ilə hər il digər dini icmalara edildiyi kimi, yəhudi icmalarına da ayrılan maddi vəsaitlər yüksək qayğı kimi qiymətləndirilir. Hər il yəhudi xalqının əlamətdar bayramları münasibətilə dövlət başçısı tərəfindən ölkəmizdə bütün yəhudi icmalarına təbrik ünvanlanması, sinaqoqların tikilməsi və bərpası əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ənənənin yaşadılmasıdır.




İctimai Şura üzvləri Milix Yevdayevin, yəhudi icmasının ölkəmizdə multikultural, tolerant ənənələrin qorunması istiqamətinə, eləcə də Azərbaycan həqiqətlərinin təbliğinə verdiyi töhfələri yüksək qiymətləndiriblər. Eyni zamanda ölkəmizdə həyata keçirilən dövlət siyasətinin ölkədəki mövcud tolerantlıq mühitini daha da dərinləşdirdiyini, xalqların və dinlərin nümayəndələri arasındakı tarixi dostluq tellərini daha da möhkəmləndirdiyini bildiriblər.

Sonda sinaqoqun ibadət zalı ilə tanış olan Şura üzvləri bu cür görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

## DQİDK yanında İctimai Şura üzvləri Azərbaycan İlahiyyat İnstitutunda olublar

### 03 noyabr 2022

Görüş zamanı İnstitutun rektoru Aqil Şirinov AİI-nin fəaliyyəti, məqsəd və vəzifələrindən bəhs edib. Qonaqlara məlumat verilib ki,



qəbul olunan tələbələr müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi, həmçinin fəlsəfə, sosiologiya, psixologiya, multikulturalizm və başqa sosial, humanitar elmləri də öyrənmək imkanına malikdirlər. A.Şirinov İnstitutun fəaliyyətində müxtəlif dünya ölkələrinin aparıcı ali təhsil müəssisələrinin təcrübələrindən faydalandıqlarını, xüsusilə beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini bildirib. Rektor əlavə edib ki, İnstitutda 2022-2023-ci tədris ili üzrə bakalavriat səviyyəsi üzrə 70, magistratura üzrə 7 tələbə təhsil alır.



AİI-də tələbələr üçün yaradılan şəraitlə yaxından tanış olan DQİDK yanında İctimai Şura üzvləri dini təhsilin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyəti müsbət dəyərləndiriblər.

# Dövlət Komitəsi yanında İctimai Şuranın sədri müsahibə prosesini izləyib

**14 fevral 2023**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın sədri Sevinc Alızadə İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün təşkil edilən müsahibədə müşahidəçi qismində iştirak edib.



Şura sədri qadın dini ayinlərin icraçısı vəzifəsinin tutulması üçün aparılan müsahibə prosesini izləyərək Müsahibə Komissiyasının üzvləri tərəfindən namizədlərə verilən sualların "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması və attestasiyası üzrə proqram"a uyğunluğunu yoxlamaqla yanaşı, iddiaçıların imtahana hazırlıq səviyyələri ilə də tanış olmaq imkanı əldə edib.

Müşahidənin sonunda fikirlərini bölüşən DQİDK yanında İctimai Şuranın sədri S. Alızadə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması məqsədilə keçirilən müsahibənin şəffaf təşkilini və reqlamentə uyğunluğunu yüksək qiymətləndirib.

PUBLICCOUNCIL.AZ
ICTIMAISHURA.AZ